# Çətin yeniyetmələrin psixoloji problemləri və onların həlli yolları

**Yeganə Ramazan qızı Mikayılova**
*Bakı Qızlar Universitetinin baş müəllimi*
**E-mail:** yegane.68@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos.U.M. Qəzvini,
psixol.ü.f.d., dos.M.S. Əliyev

**Açar sözlər:** çətin yeniyetmələr, sosial mühit, şəxsiyyət, psixoloji iş
**Ключевые слова:** трудных подростков, социальная среда, личность, психологическая работа
**Key words:** troubled teens, social environment, personality, psychological work

"Çətin" anlayışı geniş anlayışdır. Bu kateqoriyaya adətən pedaqoqların çətinliklə işlədiyi, eyni zamanda valideynlərin çətinliklə ünsiyyətə girdiyi uşaq və yeniyetmələr daxildir. Onlarla ümumi dil tapmaq mürəkkəb məsələdir. Belə uşaqlarla tərbiyə zamanı müdrik nəsihətlər də işə yaramır. Əgər onları dəqiq xarakterizə etsək, "sız" şəkilçisini bütün sifətlərin sonuna qoymuş olarıq: diqqətsiz, məqsədsiz, qabiliyyətsiz, rəhmsiz və s.i.a.

Psixoloqlar sual qoyur: doğrudanmı bu uşaqlar belə təcavüzkardır? Suala belə cavab vermək olar: heç də yox! Belə uşaqlar ona görə "çətin"dir ki, müxtəlif səbəblərdən (tibbi-bioloji, pedaqoji və psixoloji) dolayı ümumi proqram üzrə oxuya, ümumi tələbləri yerinə yetirə bilmir. Müxtəlif səbəblərdən dolayı onlar həmyaşıdları kimi formalaşmamışlar.

Hər bir "çətin" uşağın "çətin" olmasının öz səbəbləri var. Hər bir "çətin" uşaq özünəməxsus "çətin"dir.

Psixoloqlar belə hesab edir ki, "çətin"lik bağça dövründən başlayır. Bir çox hallarda bunu uşaq şıltaqlığı və nadincliyi kimi qəbul edirlər.

Davranış qüsurları uşaqlarda məhz bağça yaşı dövründə formalaşır. Uşaq həyatının bu dövrü vacib əhəmiyyət kəsb edir. Məşhur rus pedaqoqu, "çətin" yeniyetmələrlə iş sahəsində işləmiş A.S. Makarenko deyirdi ki, uşaq şəxsiyyəti beş yaşadək formalaşır, beş yaşdan sonra uşağı yenidən tərbiyə etmək çətindir.

Psixoloq L.M. Zyubin "çətin"liyin əlamətləri hansı yaşda meydana çıxa bilər?" sualına elə cavab vermişdir: "Tərbiyəvi təsiri qəbul etdiyi, daha dəqiq, mənimsədiyi andan".

Pedaqoq V.A.Suxomlinski yazırdı: "Tərbiyəvi işin çoxillik təcrübəsi, uşaqların əqli və mənəvi həyatının öyrənilməsi göstərir ki, uşağın "çətin"ə çevrilməsinin əsas səbəbi, dərslərindəki axsamanın, təlimdə geri qalmasının səbəbləri uşağı kiçik yaşlarından əhatə edən tərbiyə mühitindədir. Valideynlər və pedaqoqlar təbiətdə ən incə bir şeylə-uşaq beynilə təmasa girirlər. "Çətin" uşaq məhz bu yaşda 7-8 yaşadək formalaşır."

Yeniyetməlik yaşında uşaq ətraf mühitdən asılı olaraq böyüyür, bu zaman mikromühit onun şəxsiyyətinin formalaşmasına mühüm təsir göstərir. Mikromühit kimi ailənin rolu çox önəmlidir.

Ailə unikal psixoloji resursdur. "Çətin" yeniyetmə olan ailələr üçün valideynlər arasında olan alkoqolizm, aqressiya, narkomaniya halları tipikdir. Ailədə xoş olmayan qarşılıqlı münasibətlər, valideynlərin pis nümunəsi: insanlara laqeydlik, ikiüzlülük, riyakarlıq, kobudluq, yalançılıq, qeyri-səmimilik, parazitizm, alkoqolizm, böyüklər-yaşlılar tərəfindən yaradılan neqativ mikromühit "çətin" yeniyetmələrin yaranmasının mühüm səbəblərindəndir. Belə ailələrdə

böyüyən yeniyetmələrin vəziyyəti xüsusilə çətin və mürəkkəbdir. Burada uşağın şəxsiyyəti daim pozulur. Belə ailələr üçün yeniyetmələrə fiziki cəza verilməsi, onların təhqir edilməsi, hədə-qorxu gəlinməsi xarakterikdir. Təsadüfi deyil ki, şəxsiyyətin özünümüdafiə forması kimi meydana çıxan xuliqanlıq, kobudluq, aqressiya, evdən qaçmaq "çətin" yeniyetmələrin əsas davranış normalarına çevrilir.

Psixoloq D.İ. Feldşteynin fikrincə, "çətin" yeniyetmələrin psixoloji xüsusiyyətləri bütün yeniyetmələrdə müşahidə olunur, sadəcə "çətin" yeniyetmələrdə belə xüsusiyyətlər ifrat dərəcəyə çatmış formadadır. Yaşlılıq meyli, özünü yaşlılara bənzətmə bəzən ifrata varır, bu zaman valideynlərin: "Kiminlə avaralanırdın?", "Evdən oğurluq edirsən" və s. ifadələri yeniyetmənin qəlbinin sarsılmasına təsir göstərir. Yeniyetmə çox asanlıqla elan edir ki, "bir halda belədir, mən ümumiyyətlə evə gəlmirəm". Daha sonra var gücü ilə oz vədini yerinə yetirməyə çalışır və müstəqil insan-şəxsiyyət kimi dayanmağa cəhd edir. Hətta bəzən "çətin" yeniyetmələr valideynlərin düşüncəsini-fikrini və hətta varlığını belə inkar edirlər.

Neqativ münasibətlər şəbəkəsi getdikcə artır, genişlənir və yeniyetmənin bütün inter-personal münasibətlərini əhatə edir.

Hər şeyi şəxsən özü etmək istəyi və daxil olduğu qrupun - həmyaşıdların fikri, düşüncə tərzi yeniyetməni "küçə"nin təsiri altına salır. Yüksəlmiş özünüqiymətləndirmə onu təhlükəli vədlərə, "etiraf"lara tərəf itələyir, yeniyetmə öz vədlərini yerinə yetirmək üçün, "üzünü itirməmək" üçün, yəni küçədəki statusunu qorumaq üçün, var-qüvvəsini səfərbər edir, fiziki qüvvə nümayiş etdirir, hüquqa zidd və riskli işlərə cəhd edir. Və bu zaman təəssüf ki, bir qayda olaraq, təlimə münasibət dəyişilir.

"Çətin" yeniyetmələrlə iş zamanı psixoloqun işi üç funksiyaya əsaslanır: diaqnostika, psixoloji təsir və məsləhətvermə-konsultasiya, korreksiya.

Düzgün müalicə düzgün diaqnostikadan başlayır. Aparılan psixokorreksiya işi ailə ilə vəhdət təşkil etməlidir. Çünki "çətin" yeniyetmə ilə iş zamanı psixoloqla pasiyent arasında üçüncü varlıq yeniyetmənin ailəsidir.

**Məqalənin aktuallığı**. XX əsrdə psixopedaqogikada yeni anlayışlar əmələ gəlmiş, çətin uşaqlar anlayışı diqqəti cəlb etməkdədir. Adətən "çətin" sözü o uşaqlara aid olunur ki, onlar nəinki pis oxuyur, təlimə neqativ münasibət bəsləyir, eyni zamanda məktəb intizamını ciddi şəkildə pozur, ictimai yerlərdə davranış qaydalarına əməl etmir. Psixoloqlar belə hesab edirlər ki, "çətin" yeniyetmələr 3 şəxsiyyətdaxili qüsura malikdirlər: eqoizm, tənbəllik və yalançılıq. Valideynlər belə uşaqlarla xüsusi rəftara malik olmalıdırlar. Bu baxımdan çətin uşaqların psixoloji xüsusiyyətlərinin öyrənilməsi aktuallıq kəsb edir. Məqalədə belə yeniyetmələrlə iş zamanı qarşıya çıxan problemlər və onların həlli nəzərdən keçirilir.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat işində çətin uşaqların psixoloji problemləri və onların həlli nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat işində əldə olunan nəticələr təcrübi əhəmiyyət kəsb edir. Nəticələr psixoloji xidmət zamanı çətin uşaqlarla iş sahəsinə tətbiq edilə bilər.

## Ədəbiyyat


1. Палагина Н.Н. Психология развития и возрастная психология. СПб., М., 2011.
2. Антонов Ю.М. Криминология. Избранные лекции. М., 2017.
3. Молчанова Л. Трудные дети М., 2015.
4. Həmzəyev M., Əmiraslanova S. Çətin yeniyetmələr. Bakı, 2000.

**Е.Р. Микаилова**

## Проблемы “трудных” подростков, пути их предупреждения и решения


### Резюме

Понятие “трудный” – очень широкое. К этой категории обычно относят детей и подростков, с которыми трудно заниматься педагогам, для которых оказываются бесполезными мудрые наставления по воспитанию, с которыми трудно найти общий язык, в том числе и родителям. В их характеристике можно написать десятка два прилагательных с приставкой “не”; невнимательный, неусидчивый, непослушный, неспособный и т.д. Они трудные потому, что им самим приходится очень нелегко в силу разных причин (медико-биологических, педагогических и психологических) им трудно учиться по общей программе, идти общим темпом, выполнять общие требования. В силу разных причин они стали не такими, как их сверстники. Каждый трудный ребенок труден по-своему.


**Y.R. Mikayilova**

## Problems of “difficult” teenagers, ways of their prevention and solution


### Summary

The term "difficult" - very widespread. This category usually referred children and adolescents, which are difficult to deal with teachers, which are useless wise guidance on education, which is difficult to find a common language, including parents. Their characterization can write a couple of dozen adjectives with the prefix "no"; inattentive, restless, rebellious, and so unable to They are difficult because they themselves have to be very difficult due to various reasons (biomedical, pedagogical and psychological), it is difficult to study in the general program, go to the tempo, perform the general requirements. For various reasons, they have not the same as their peers. Each problem child is difficult in its own way.


**Redaksiyaya daxil olub:** 01.02.2021